Azərbaycan Xalq Parlamentinin üzvü, Millət Vəkili
Əli Quliyevin Parlamentin 03.05.2025-ci il tarixli iclasında
“Tərtər qətliamı” mövzusunda çıxışı.

Hörmətli sədr, hörmətli millət vəkilləri !

Tərtər hadisələrini, Azərbaycan xalqının yaxın tarixində tayı bərabəri olmayan bir qətliam da adlandırmaq olar, bir çox xüsusiyyətlərinə görə, terror kimi də qiymətləndirmək də olar. Ancaq nə cür adlandırılmasından asılı olmayaraq, Tərtər hadisələri ən ağır bir dövlət cinayətidir. Tərtər dövlət cinayəti tariximizdə qara bir ləkədir, dəhşətli bir utancdır, həmişə xəcalətlə xatırlananacaq ağır bir milli travmadır !

Tərtər cinayətini, Azərbaycan dövləti adından indiki hakimiyyət törədib, öz ordusuna qarşı, öz vətəndaşlarına qarşı! Misli görünməmiş bir amansızlıqla, misli görünməmiş bir qəddarlıqla. Azərbaycan əsgərlərinə, Azərbaycan zabitlərinə, Azərbaycanın mülki vətəndaşlarına divan tutulub, onlarla Azərbaycan vətəndaşı qətl edilib, minlərlə Azərbaycan əsgərinə, zabitinə, onlarla mülki şəxslərə ən ağır işgəncələr verilib, cinsi təcavüz edilib, ən alcaq üsullarla onların şəxsiyyətini, ləyaqətini alçaltmağa cəhd edilib.

Bəli məhz cəhd edilib, ancaq qəhrəman əsgər və zabitlərimiz bu işgəncələr qarşısında dözüblər, öz mənliklərini, ləyaqətlərini qoruyublar, mübarizə aparıblar, həbsxanalardan keçiblər, xalqımızın birgə mübarizəsi nəticəsində azadlıqlarına qovuşublar və bu gün onlardan bir neçəsi bizim sıralarımızdadırlar. Mən onları salamlayıram.

Hörmətli millət vəkilləri. Onlara qarşı bütün bu vəhşiliklər dövlət adından edilib, dövlət adından məhkəmə qərarları çıxarılıb.

7 may 2017-ci ildə Azərbaycan Respublikası Prokurorluğu, Müdafiə Nazirliyi, Daxili İşlər Nazirliyi və Dövlət Təhlükəsizlik Xidməti birgə bəyanat imzalayıblar !

Bu bəyanatda, guya bir qrup hərbçi və mülki şəxslərin, pul qarşılığında, düşmən dövlət Ermənistanın xeyrinə çasusluq etdiyi irəli sürülüb .

Bu bəyanatı əsas götürərək, Respublika Hərbi prokurorluğu Cinayət Məcəlləsinin 274 -cü maddəsi ilə ( Dövlətə xəyanət ) bir qrup hərbi qulluqçu və mülki şəxslər haqqında cinayət işi başladıb!

**Hərbi prokurorun yaratdığı “istintaq əməliyyat qrupu”nun apardığı iş, qanlı bir qətliamla sonuclanıb !**

Aparılan bu dırnaqarası əməliyyatda, hərbi prokurorluqla yanaşı, Müdafiə Nazirliyi, Respublika Prokurorluğu, Dövlət Təhlükəsizlik Xidməti, MN-nin Tibbi Xidmət İdarəsi , korpus komandirləri, briqada komandirləri, batalyon komandirləri, Hərbi Donanmanın hərbiçiləri (Dəniz piyadaları) rayon icra hakimiyyətləri və digər dövlət qrumlarının nümayəndələri iştirak ediblər .

Sadaladığım dövlət qrumlarının nümayəndələri, Tərtərdə, Bərdədə, Beyləqanda, Ağcabədidə, Mingəçevirdə ayrı-ayrı hərbi hissələrin kazarmalarında, faşist konslagerlərini xatırladan işgəncə məkanları yaradıblar. Dövlətin bütün güc nazirliklərinin, yerli icra hakimiyyətlərinin

insan resurları, dövlətin inzibati, maliyyə resurları, "dövləti sarsıtmağa ", guya terror aktları törətməyə yönəlmiş vətən xainlərini müəyyənləşdirməyə səfərbər olunmuşdur !

Sonra saxta ittihamlarla, saxta məhkəmə hökmləri ilə onlarla şəxs həbsə atılmışdır .

İctimai araşdırmalar zamanı, istər “istintaq əməliyyat qrupu” adlanan cinayatkar bandanın (sabiq hərbi prokuror Xanlar Vəliyev və müavini Şəfaət İmranov başda olmaqla), istərsə də cinayatkar hərbi hakimlərin apardığı işlərin saxta olması aşkarlanaraq, ifşa olunub .

İctimai araşdırmaya rəhbərlik edən hüquqşünas Qurban Məmmədov, bu araşdırmanın ən ağır və təhlükəli işlərini çiyinlərində tək daşıyan İlham Aslanoğlu, sonrakı mərhələdə onlara qoşularaq həyatlarını təhlükəyə atan Abid Qafarov, Hacı Ramin qardaşımız və adlarını burada çəkməklə çıxışımı ağırlaşdırmaq istəmədiyim daha neçə-neçə başqaları Hərbi prokurorluğun müstəntiqlərinin, hərbi prokurorların, bu istintaq işini hansı cinəyatkar metodlarla apardıqlarını, hərbi hissələrdə korpus komandirlərindən tutmuş , digər vəzifəli şəxslərədək , törətdikləri cinayətləri şahid ifadələri vasitəsi ilə, maddi sübutlarla meydana çıxararaq içtimailəşdiriblər ki, bu da Respublika Prokurorluğunun istifadəsi üçün çox qiymətli bir resurs , material bazası oldu.

Yeri gəlmişkən, 16 dekabr 2021-ci ildə yaradılan yeni istintaq qrupu məhz ictimai istintaqın ortaya çıxardığı zərərçəkmişləri şahid qismində istintaqa cəlb etdi və əlavə heç bir iş görmədi.

İctimaii istintaq zamanı, sabiq Respublika prokuroru Zakir Qaralov, onun müavini Rüstəm Usubov, Müdafiə Naziri Zakir Həsənov , sabiq qərargah rəisi , vicdanında minlərlə şəhidin qanı olan Nəcməddin Sadıqov, MN tərəfindən istintaqa "nəzarət edən" Ramın Əsgərov , general Kərim Vəliyev, Korpus komandirləri Hikmət Həsənov , Mais Bərxudarov , briqada komandirləri Teymur Məmmədov, Qiyas Sadıqov və onlarla yüksək rütbəli zabitlərin cinayət törətdikləri aşkarlanıb.

Bu qədər böyük masştabda, Azərbaycan Ordusunun əsgərlərinə, zabitlərinə, onların yaxınlarının, bütövlükdə millətimizin başına gətirilmiş faciənin səbəbkarı kimdir?- sualının bir cavabı var: **Azərbaycan Dövləti.**

2017 -ci ildə həmin, məsuliyyətsiz bəyanatı imzalayan Respublika Baş prokuroru Zakir Qaralov, MN -i Zakir Həsənov , DTX rəisi Mədət Quliyev və DİN-i Ramil Usubov !

Tərtər ağır dövlət cinayətinin baş verməsinin qarşısını ala bilməyən, minlərlə Azərbaycan vətəndaşının ən ağır işgəncələrə məruz qalmasına, onların şəxsiyyətinin, ləyaqətinin alçaldılması ilə nəticəlnmiş Tərtər faciəsinin məsuliyyətini həm də İlham Əliyev daşıyır.

Ən dəhşətlisi isə budur ki, bu ağır dövlət cinayəti baş verəndən sonra, bu cinayətin təşkilatçıları, icraçıları barədə dövlət başçısının tədbir görməməsi, əksinə, onları yüksək dövlət mükafatlarına, yüksək dövlət vəzifələrinə layiq görməsidir! Dövlət başçısı , Azərbaycan dövləti adlndan Tərtər zərərçəkənlərindən üzr istəməyib, 8 il ərzində bircə dəfə də Tərtər cinayətini dilə gətirməyib, inadla susmağa üstünlük verib! Məncə, əlavə şərhə ehtiyac yoxdur !

Biz, Xalq Parlamenti olaraq , Azərbaycan dövlətini təmsil edən, Azərbaycan xalqının adından danışmaq səlahiyyəti olan Respublika Prezidentindən hesabat tələb edirk.

Cənab Prezident, şübhəsiz ki, sizin göstərişinizlə, məhz 4 güc nazirliyinin verdiyi bəyanatdan sonra yaradılmış istintintaq əməliyyat qrupunun apardığı işin nəticəsindən xəbəriniz olub. Bəs, bu istintaq qrupu adı altında fəaliyyət göstərən insan qəssablarının, cəlladların, insanlıqdan nəsibini almayan, verdikləri işgəncələrin xarakteri ilə psixi problemlərinin olduğu müəyyən edilən bu canilərin apardıqları "istintaqın" nəticə nə oldu ? Hansı casus şəbəkəsi aşkarlandı , Dövlətə, Vətənə xəyanət etmiş neçə Vətən xaini aşkarlandı ? Hesabat verin təmsil etdiyiniz bu xalqa! Biz sizdən bunu tələb edirik.

Hörmətli Millət vəkilləri, Tərtər cinayətində Rusiya izi , PKK izi axtarmağa gərək yoxdur.

Hər şeyi adıyla çağırmaq lazımdır.

Nə qədər ağır olsa da, növbəti dəfə, bir daha təkrar edirəm: Tərtər qətliamını törədən Azərbaycan dövlətidir!

Öz vətəndaşını qətliam edən dövlət !

Tərtər qətliamına gətirən yol isə , 1993 -cü ilin 4 iyunundan başlayır.

Rejim tərəfindən, həmin vaxtdan öyrənilmiş (buna sosilogiyada qazanılmış da deyilir) çarəsizliyə məhkum edilmiş millətimizin bu durumdan çıxmasının zamanı gəlmişdir.

Hörmətli Millət vəkilləri, bizim, seçilmiş vəkillər olaraq, legitim bir qrum olaraq, ləyaqətli Azərbaycan vətəndaşları olaraq , Millətimiz , Dövlətimiz , Vətənimiz qarşısında məsuliyyətimiz var və hər birimiz bu məsuliyyəti dərk edərək, hərəkətə keçməliyik !

Məhz bu səbəbdən, Tərtər ağır dövlət cinayətini törədən şəxslərin layiq olduqları cinayət məsuliyyətinə cəlb edilmələrini təmin etməyə məhkumuq !

Biz çox istərdik ki, bu məsələ ölkə daxilində həll olsun, baxmayaraq ki, gecikmiş ədalət, ədalət deyil. İstəməzdik ki, onsuz da , hər addımbaşı adı korrupsiya qalmaqallarında hallandırılan, demokratik dəyərlərin, hüququn üstünlüyünün, söz və mətbuat azadlığının , insan haqlarının yerlərdə süründüyü ölkəmizin adı növbəti dəfə beynəlxalq aləmdə biabır olsun!

Amma görünən odur ki , İlham Əliyev bizə başqa şans buraxmaq fikrində deyil. Tərtər cinayəti ilə bağlı yeganə çıxış yolumuz Beynəlxalq Haaqa Cinayət məhkəməsinə müraciət etməyimizdir!

Eyni zamanda, BMT İnsan hüquqları komissiyasına, Avropa İnsan Haqları məhkəməsinə, Avropa Parlamentinə AzXP adından müraciət ünvanlamalıyıq!

**Tərtər məsələsi toplumumuz üçün ölüm-dirim məsələsidir! Tərtər məsələsi, millətimiz üçün şərəf məsələsidir! Tərtər məsələsi namuslu dövlət məsələsidir!**

Ona görə də, bütün zorluqlara, ən ağır şərtlərə rəğmən pəs etməməliyik, usanmamalıyıq , yorulmamalıyıq, ən əsası isə, Birləşmiş Krallığın bütün dövrlərin ən yaxşı siyasətçisi kimi tanınan Uinston Çörçil demiş, **"Don't give up: never, never, never!"**

**Heç vaxt ,heç vaxt , heç vaxt təslim olmayın!**

Səbr göstərdiyiniz üçün hamınıza təşəkkür edirəm, hörmətli millət vəkilləri.